# QƏRAR № 18/77

# Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsən 2025-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək Türk Dövlətləri Parlament Assambleyasının (2025-ci il 12 iyun tarixli) Qərarı ilə həmin təşkilatın Baş katibi vəzifəsinə seçilməsilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı R.S.Həsənin müraciəti və Türk Dövlətləri Parlament Assambleyası tərəfindən təqdim olunmuş təsdiqedici sənədlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada araşdırılmış və onun deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsasların olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatı başqa ödənişli fəaliyyətlə məşğul olduqda onun deputat səlahiyyətlərinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 175.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının qərarı ilə xitam verilir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək və Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 175.3-cü, 176.2-ci və 176.3-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*15.10.2025*

Azərbaycan.- 2025.- 16 oktyabr (№ 222).- S.3.